ŞƏFFAFLIQ AZƏRBAYCAN

ATƏT Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Bakı Ofisi

*MƏTBUAT ÜÇÜN MƏLUMAT*

**Əlaqə:**
Kənan Qasımov
İctimaiyyətlə Əlaqələr üzrə mütəxəssis
Tel: (994 12) 418 11 09
Faks: (994 12) 596 20 38
E-mail: kanan_q@transparency.az

ATƏT-in Bakı ofisinin maliyyə dəstəyi ilə Gəncədə əhaliyə pulsuz hüquqi məsləhətlərin verilməsi və hüquq sahəsində mütəxəssislərin hazırlanmasına dəstək göstərmək məqsədilə Qanunun Aliliyi Hüquq Resurs mərkəzi açılıb. "Şəffaflıq Azərbaycan" Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyi tərəfindən idarə olunan mərkəzin açılışında ATƏT-in Bakı ofisinin rəhbəri Əli Bilgə Cankorel iştirak edib. Mərkəzin rəhbəri Sevinc Məmmədova açılış mərasimində çıxış edərək burada göstəriləcək xidmətlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verib. Hüquqi resurs mərkəzinin əsas hədəfi məhkəmələrin işinin gücləndirilməsinə nail olmaqdır. Mərkəzdə regionda yaşayan insanlara hüquqi məsləhətlər verilir və hüquqi baxımdan qarşıya çıxan bütün məsələlərdə yardım göstərilir. Gəncədəki mərkəzdə əhaliyə vaxtlı-vaxtında yardım göstərilməsi üçün xüsusi "qaynar xətt" yaradılıb. Layihənin məqsədlərindən biri müvafiq qurumlarla əməkdaşlıq şəklində məhkəmə sektorunun daha da irəliləməsinə, güclənməsinə nail olmaq, qanunvericiliyin və icra mexanizmlərinin təkmilləşməsinə kömək etmək, ədalətli məhkəmə standartlarının yaradılması və hər bir sadə vətəndaşın bu xidmətlərdən istifadəsinə şərait yaratmaqdır.

Layihənin hədəf qrupları arasında müxtəlif təbəqələrdən olan insanlar yer alır. Daha çox diqqət ictimai həyatda bir qədər passiv olan kənd əhalisinə, qadınlara, məcburi köçkün və əlil insanlara, gənclər və vətəndaş cəmiyyətinin liderlərinə ayrılır. Hüquq müdafiəsi mərkəzdə kompüter avadanlığı, yüksək sürətli internet və təcrübə keçən hüquqşünasların istifadəsi üçün kitabxana fəaliyyət göstərir. Resurs mərkəzində könüllülük əsasında çalışan gənclər ictimai təşkilatlarda işləmək vərdişlərinə yiyələnir, bunun üçün onlar müəyyən təlim proqramlarına cəlb edilir onların internetdən və mərkəzimizdə mövcud olan ədəbiyyatlardan istifadələrinə şərait yaradılır.

*"Şəffaflıq Azərbaycan" haqqında əlavə məlumat almaq üçün www.transparency.az internet səhifəsinə müraciət edə bilərsiniz.*